Elmlə poeziyanı müqayisə edən zaman ilk baxışdan belə görünə bilər ki, onlar tamamilə fərqli anlayışlardır: elm mahiyyət etibarilə məntiqə, təcrübəyə, poeziya isə daha çox təxəyyülə, intuisiyaya əsaslanır. Ancaq məsələyə bir qədər diqqətlə yanaşdıqda isə görmək çətin deyil ki, onlar arasında oxşar və ümumi cəhətlər də az deyildir. Həm elm, həm də poeziya yaradıcılıq formasıdır və hər ikisi dünyanın və cəmiyyətin qanunauyğunluqlarını öyrənməyə, izah etməyə çalışırlar. Elmdə məntiqə əsaslanan prinsiplər və metodlardan

Mif ibtidai insanların dünyagörüş forması idi. İnsanlar təbiət hadisələrinin səbəblərini, real həyatın mahiyyətini başa düşmək istəyirdilər: ildırım nə üçün çaxır, külək haradan uçub gəlir? Nə üçün qış olur və onun gəlişi ilə ağaclar yuxuya gedirlər? Nəyə görə yazda onlar yenidən oyanırlar? Nə üçün insanlar xəstələnirlər, nə üçün onlar qocalır və ölürlər?

İbtidai insanları başqa suallar da düşündürürdü, ancaq onlar bu suallara cavab tapa bilmirdilər, çünki o zaman hələ elm yox idi. Ona görə də insanlar bu suallara hissiyyat, intuisiya əsasında cavablar tapmağa çalışırdılar. Məsələn, belə düşünürdülər ki, külək ona görə əsir ki, haradasa oturmuş çox nəhəng bir varlıq onu üfürür. Bu varlıq isə tanrı və ya iblis ola bilər. İldırımı isə hansısa başqa bir tanrının nizəsinə bənzədirdilər. Xəstəlik hər hansı bir ruhun və ya tanrının insanlara atdığı gözəgörünməz oxların nəticəsi ola bilərdi.

Hər bir içma, tayfa belə miflər düzəldirdi və nəsildən-nəslə ötürülən

# ELM VƏ POEZİYA

istifadə edildiyi halda, poeziya daha çox təxəyyüllər və emosional düşüncələr əsasında təbiətin və insan qəlbinin gizli gözəlliklərini üzə çıxarır. Bununla belə, elmin poeziyaya, poeziyanın isə elmə maraq göstərməsinə dair tarixdə çoxlu nümunələr vardır. Məsələn, orta əsrlərin ən böyük alimlərindən olan İbn Sina, Ömər Xəyyam, Nəsirəddin Tusi həm də gözəl şeirlər yazmışlar. Xəyyamın rübailəri indi bütün dünyada məşhurdur. Bizim dövrdə də bir çox tanınmış alimlər eyni zamanda şeir də yazırlar. Təbiidir ki, professional şairlərlə müqayisədə onların uğurları az olacaqdır. Şair Bəxtiyar Vahabzadə yaxşı deyib ki, "Qatlayıb dizinin altına qoyar Alim Bəxtiyarı, şair Bəxtiyar".

Qədim zamanlarda isə poeziya ilə elm arasındakı əlaqələr daha sıx olmuşdur. Məsələn, Nizami Gəncəvi, Xaqani Şirvani, Füzuli kimi şairlər həm də dövrlərinin bir çox elm sahələrini yaxşı bilmişlər. Bundan əlavə, orta əsrlərdə bəzən alimlərin öz elmi risalələrini şeirlə yazması da adi hal idi. Eləcə şairlər də öz poetik əsərlərində müxtəlif elmi məlumatlar verir, elmi istilahları şeir dilinə gətirirdilər. Bu baxımdan Xaqani Şirvaninin və Füzulinin yaradıcılığı xüsusilə seçilir. Füzulinin hətta lirikasını belə, əqli poeziya adlandırmaq olar. Çünki Füzuli şeirlərində oxucuları məftun edən başlıca amil onun yaratdığı zərif poetik mənalardır. Belə mənaları isə hiss, həyacan, şövq əsasında deyil, məhz ağlın köməyi ilə qurmaq mümkündür. Məsələn, beytlərindən birində şair yazır:

Çaklar könlümdə sanma kim,
açıbdır tiği-eşq,
Könlümün şəhrinə mehrin
girməyə dərvazələr.

Burada lirik qəhrəman öz məşuquna deyir ki, zənn etmə ki, mənim sinəmdəki çapıqları sənin məhəbbətinin qılıncı açıbdır; onlar mənim ürəyimin qapılarıdırlar, açılıblar ki, sənin mehrin oradan könlümə daxil olsun.

Bəzən belə poetik mənaları şair bir misra daxilində belə, böyük ustalıqla ifadə edə bilir:

Məhu-növ sanma, tutmuş çərxi tiği-şöleyi-ahım.

Bu misrada isə mübaliğəli tərzdə deyilir ki, "göydəki qövsü təzə çıxmış ay hesab etmə: o mənim ahım alovunun şöləsidir ki, qalxıb göy üzünü tutub.

Poeziya ilə elmin mənşəyi də bir-birilə sıx bağlı olmuşdur. Hər ikisi öz başlanğıcını qədim mif yaradıcılığından götürür, ancaq poeziya mifin tərifindən, elm isə onun tənqidindən bəhrələnmişlər.

bu miflərə hamı mütləq formada inanırdı. Tanrılardan və ruhlardan kömək gözləyən, onların qəzəbindən qorxan insanlar belə varlıqların mərhəmətini əldə etmək üçün onlar haqqında miflər, əfsanələr düzəldir və bu miflərin məzmununa uyğun olaraq onların şərəfinə mərasimlər keçirir və qurbanlar verirdilər.

Ancaq zaman keçdikcə bu mif və mərasimlərin təsirsiz olduğunu başa düşən ayrı-ayrı müdrik insanlar üzə çıxırdılar. Məsələn, onlar görürdülər ki, yağış tanrısına kəsilən qurbandan sonra heç yağış yağmadı, ancaq mərasim keçirilmədiyi bir zamanda yağış yağdı. Beləliklə, miflərə və onların gücünə inam get-gedə zəifləyirdi və mifləri tənqid edənlərin sayı da getdikcə çoxalırdı. İlkin olaraq şair tipli ozanlar, artıq "fövqəltəbii gücünü" itirmiş mif mətnlərindən uşaqlar üçün nağıllar düzəldirdilər. Qəhrəmanlıq miflərini isə əlavə hadisələrlə və məlumatlarla zənginləşdirərək, dastanlar halına salırdılar. Miflərdən nağıl və dastan düzəldən zaman ozan şairlər onlara dünya, təbiət, insan həyatı və s. məsələlər barədə öz məntiqi düşüncələrini də əlavə edirdilər. Beləliklə də həyata fəlsəfi baxışın əsasları qoyulurdu. Bu dastanları dinləyəndən sonra şair olmayan digər müdrik insanlar da həyata, təbiətə aid miflərə tənqidi yanaşaraq, öz müşahidələri və əqli mühakimələri əsasında fəlsəfi və elmi risalələr yazmağa başlayırlar. Elm də öz başlanğıcını, məhz ilkin olaraq Misirdə, Şumerdə, Qədim Yunanıstanda və digər yerlərdə ortaya çıxan həmin risalələrdən götürürdü.

Qədim miflərin mətnləri nağıl, əfsanə və dastanlara çevrildiyi kimi, qədim mərasimlərdə avazla oxunan dua və ovsunlar da sonradan nəğmə və mahnılara çevrilirlər. Həmin nəğmə mətnləri də öz növbəsində şeir sənətinin başlanğıcı olurdular. Yavaş-yavaş insanlar bunu da başa düşürlər ki, mahnının mətnini musiqisiz də, yəni ayrıca şeir kimi də oxumaq olar.

Folklor yaradıcılığında yaranmış bu əfsanə, rəvayət, nağıl və dastanlar Homer, Firdovsi kimi şairlər tərəfindən toplanaraq yazılı şəkildə nəzmə çəkildikdən sonra isə artıq yazılı ədəbiyyat yaranmış olurdu. Bu yazılı ədəbiyyatın qədim nümunələri də öz növbəsində sonralar humanitar elmlər üçün çox qiymətli mənbələrə çevrilirdilər.

Beləliklə də biz görürük ki, elmlə poeziya arasında tarix boyu həmişə qarşılıqlı əlaqələr olmuş və onlar daima qarşılıqlı surətdə bir-birini zənginləşdirmişlər.

Kamil Allahyarov